Xalq qəzeti.- 2019.- 16 oktyabr.- S.15.

# Azərbaycan Kaliforniya beynəlxalq mədəniyyət festivalında iştirak edib

***❒ Azərbaycan ABŞ-ın Kaliforniya ştatının Örvayn şəhərində keçirilmiş "Irvine Global Village Festival" adlı beynəlxalq mədəniyyət festivalında geniş təmsil olunub.***




Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan verilən məlumata görə, Kaliforniyanın ən böyük beynəlxalq mədəniyyət sərgilərindən olan bu festivalda 50-dən çox ölkə iştirak edib.

Kaliforniya-Azərbaycan Dostluq Assosiasiyası və Azərbaycanın Los-Ancelesdəki baş konsulluğu tərəfindən qurulan Azərbaycan stendində müxtəlif bannerlər, broşürlər, kitab və jurnallar vasitəsilə sərgi iştirakçılarına ölkəmiz haqqında geniş məlumat verilib.

Sərgi iştirakçıları Azərbaycanın coğrafi mövqeyi, əsrarəngiz təbiəti, memarlıq abidələri, qədim tarixi, zəngin mədəniyyəti, mətbəxi, musiqisi, həmçinin turizm imkanları barədə ətraflı məlumat əldə ediblər. Bundan başqa, milli geyimlərimiz, rəqslərimiz və mətbəximizdən nümunələr festival ziyarətçilərində xüsusi maraq oyadıb.

Festival iştirakçılarının Azərbaycan və onun mədəniyyəti ilə bağlı çoxsaylı sualları icma fəalları və baş konsulluğun əməkdaşları tərəfindən cavablandırılıb.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***